# Azərbaycan-Türkiyə strateji müttəfiqliyi heç bir ölkəyə və qüvvəyə qarşı yönəlməyib

**"Türkiyənin Qəhrəmanmaraş şəhərində 2023-cü ilin fevral ayında baş vermiş dəhşətli zəlzələdən zərər çəkmiş şəxslər üçün tikilmiş evlərin təqdimetmə mərasimində Prezident İlham Əliyevin böyük sevgi ilə qarşılanması Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının və müttəfiqliyinin bir daha sübutu, tarixboyu olmuş ən böyük zirvəsidir".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Yalçın Hacızadə söyləyib.

O deyib: "Qardaş Türkiyə müstəqilliyimizin ilk anlarından bizə dəstək verir. Bu, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş "bir millət, iki dövlət" konsepsiyası ilə Şuşa Bəyannaməsi kimi sarsılmaz müttəfiqlik sənədinin imzalanmasına qədər inkişaf edib. Azərbaycan dövləti və xalqı da hər zaman Türkiyənin yanında olub - istər Türkiyənin terrorizmlə mübarizə sahəsində fəaliyyətində, istərsə də baş verən təbii fəlakətlər zamanı.



2023-cü ilin fevralında Türkiyənin cənub-şərqində baş verən dəhşətli zəlzələdən dərhal sonra Azərbaycan dövləti və xalqı qardaş ölkəyə kömək əlini uzadıb. Fəlakətin ilk günlərindən Prezident İlham Əliyevin tapşırığı ilə bütün imkanlar səfərbər edildi. Axtarış-xilasetmə işlərində iştirak etməklə yanaşı, ölkəmizin həm dövlət qurumlarının, həm də qeyri-hökumət təşkilatlarının səyləri fəlakətlə bağlı qardaş ölkəyə yönəldildi. Dövlətimizin başçısının mühüm tapşırığına əsasən, Azərbaycanın qardaş ölkəyə uzunmüddətli dəstəyi üçün Qərəmanmaraşda "Azərbaycan" məhəlləsinin inşasına start verildi. Ərazisi 27,6 hektar olan məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin burada məskunlaşacaq ailələr üçün 1595 ticarət obyekti də yaradılacaq".

Politoloqun sözlərinə görə, Azərbaycan-Türkiyə strateji müttəfiqliyi heç bir ölkəyə və qüvvəyə qarşı yönəlməyib. Məqsəd hər iki ölkə daxil olmaqla ümumilikdə regionumuzun təhlükəsizliyinin təmin edilməsi, iqtisadi, siyasi, nəqliyyat, kommunikasiya imkanlarının daha da yüksəldilməsi və qarşılıqlı faydaya köklənən əlaqələrin inkişafıdır. Hər iki ölkənin dünyada sülhün, təhlükəsizliyin, ədalətin qorunması sahəsindəki səyləri bizə qarşı olan inamı daha da artırır və bu da bizimlə əlaqə qurmaq istəyən, yanımızda, ətrafımızda olan ölkələrin sayının çoxalmasına gətirib çıxarır.

"Azərbaycan və Türkiyə çox həssas regionda yerləşir və qonşuluğumuzda olan iki ölkə böyük müharibələrə cəlb olunub. Hazırda dünyada baş verənlər təhlükəsizliyin ayrı-ayrılıqda mümkün olmayacağını göstərir. Ona görə bütün bunlar bizi daha da birləşdirməli və gələcək təhlükəsizliyimizi birlikdə təmin etməliyik. Eyni zamanda bizim əlaqələrimizin inkişafı türk dünyası üçün də bir örnəkdir", - deyə Yalçın Hacızadə vurğulayıb.

Azərbaycan.- 2025.-22 iyun (№ 127).- S.6.